**AR NRYTN "AzInTelecom" MMC-nin Sertifikatlaşdırma departamenti**

# QƏRƏZSİZLİYİN TƏMİN EDİLMƏSİNƏ DAİR BƏYANNAMƏ

AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi Sertifikatlaşdırma departamentinin sertifikatlaşdırma zamanı AZS ISO/IEC 17065-2014 "Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılması üzrə orqanlara olan tələblər" standartının qərəzsizliyin təmin edilməsinə qarşı irəli sürdüyü tələblərinə cavab verən fəaliyyətin həyata keçirməyini öhdəsinə götürür.

**Sertifikatlaşdırma departamenti fəaliyyətinin qərəzsiz olmasının təmin edilməsi üçün qarşısında aşağıdakı məqsədləri qoyur:**

- uyğunluğun qiymətləndirilməsinin və sertifikatlaşdırma ilə bağlı icra etdiyi bütün digər fəaliyyət növlərinin qərəzsizliyinin təmin edilməsini;
- sertifikatlaşdırma prosesində maraqları təmsil edilən bütün tərəflərin, o cümlədən sertifikatlaşdırma sifarişçilərinin və dövlət akkreditasiya və nəzarət orqanlarının maraqlarının qorunmasını.

**Qeyd olunmuş məqsədlərə nail olmaq üçün Sertifikatlaşdırma departamenti qarşısında aşağıdakı vəzifələri qoyur:**

- qərəzsizliyin təmin edilməsi mexanizminin işlənməsini, onun tətbiqini və təkmilləşdirilməsini;
- uyğunluğun qiymətləndirilməsinin və təftişlərin qərəzsiz həyata keçirilməsini, şikayətlərin və apelyasiyaların qərəzsiz baxılmasını;
- daxili auditlərin qərəzsiz keçirilməsini;
- departament heyətinə qərəzsizliyin tələblərinə cavab verən, ilk növbədə sifarişçilərin maraqlarını təmsil edə bilməyəcək və ya maraqlarına zərər gətirə bilməyəcək, şəxslərin cəlb edilməsini.

**Qərəzsizliyin təmin edilməsinə dair siyasətin həyata keçirilməsi üzrə məsuliyyətini dərk edərək, AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi aşağıdakıları öhdəsinə götürür:**

- qeyd olunmuş vəzifələri icra edərək məqsədlərinə nail olmaq üçün müvafiq şəraitin təmin edilməsini;
- departament heyətinin və rəhbərliyinin qərəzsizliyin təmin edilməsi üzrə cavabdehliyinin müəyyən edilməsini;
- departament heyətinin əmək haqqılarının keçirdikləri uyğunluğun qiymətləndirilməsi, təftişlər və qərəzsizliyin təmin edilməsinə dair təhlilin nəticələrindən asılı olmamasının təmin edilməsini.

**AR NRYTN "AzInTelecom" MMC-nin direktor müavini, direktor v.m.i.e.** imza **Tağı Tağı-Zadə**

M.Y.

**Tarix: 29 mart 2021-ci il**

**AIT-SD-PL(Qərəzsizliyin təmin edilməsinə dair Bəyannamə)-2.0**

Vizalar:

| Ad və soyad | Vəzifə | İmza | Tarix (DD/MM/YYYY) |
|---|---|---|---|
| Orxan Mikayılov | Sertifikatlaşdırma departamentinin rəhbəri | | 29.03.2021 |